Filmlərdə yaşanan həyat

İncəsənət sahəsində kino ən önəmli yerlərdən birini tutur. Olduqca geniş auditoriyaya malik bu sənət növü uzun bir inkişaf merhelesi qet etmişdir. Azərbaycan kinosu XX esrin evvelinden başlayaraq çetin ve şerefli bir yol keçerek dünyanın film inciləri xezinesine öz layiqli töhfesini vermişdir.

Ötən əsrin sonlarında SSRİ məkanında, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi proseslər digər sahələr kimi mədəniyyət sahəsinə də təsirsiz ötüşmədi. 90-cı illərdə özünün çətin və böhranlı dövrünü yaşayan Azərbaycan kinosuna yalnız ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra diqqət və qayğı göstərmişdir. Ulu öndərin 2004-cü il 18 dekabr tarixli fərmanından sonra mədəniyyətdə, o cümlədən kino sahəsində əsl dirçəliş dövrü başlandı. O vaxtdan etibarən avqustun 2-i ölkəmizdə kino günü kimi qeyd olunur. Həmin vaxta qədər elə hesab olunurdu ki, Azərbaycan kinosunun tarixi 1916-cı ildən başlayır. Amma görkəmli kinoşünas Aydın Kazımzadə uzun və gərgin axtarışlardan sonra əsaslı şəkildə sübut etdi ki, Azərbaycan kinosunun tarixi 1898-ci ildən hesablanmalıdır.

O vaxtdan artıq 109 il ötür. Bu müddət ərzində Azərbaycan kinosu çətin, enişli-yoxuşlu, həm də şərəfli bir yol keçmişdir. Bəzən kişi aktyorlar qadın paltarı geyinərək kamera qarşısında oynamışlar. Yaratdıqları obraza görə ən ağır təhqirlərə məruz qalanlar da olmuşdur. Ancaq amallarından, məslək və əqidələrindən dönməmişlər. Fəxr etmişlər ki, zamanın yaxşı-yaman olaylarını lent yaddaşlarına köçürə bilmişlər. Həmin qısasüjetli, tammetrajlı filmlərdən xeyli fraqmentlər, çoxlu şəkillər günümüzə qədər gəlib çıxmışdır. Onların qorunduğu yerlər isə S.Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Azərbaycan Dövlət Kinofoto Sənədləri Arxivi, Mərkəzi Dövlət Arxivi, C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası Arxivi, Azərbaycan Dövlət Film Fondunun Arxivi və Naxçıvan Dövlət Film Fondudur.

Bu il həm də Azərbaycan kino sənətinə dəyərli incilər bəxş etmiş Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası tarixinin 75-ci ilinə qədəm qoyur. Bu kinostudiyada indiyə qədər 339 sayda tammetrajlı və qısametrajlı bədii (televiziya) filmlər, 104 sayda cizgi (animasiyalı) və 1457 sayda sənədli, elmi-kütləvi (o cümlədən də tədris) filmləri yaradılmışdır. Sənədli tədris filmləri 35 millimetrlik adi və genişekranlı formatda və 16 millimetrlik adi və ferromaqnit səs cığırı olan kinoplyonkalarda çəkilmişdir. "Azərbaycanfilm"in dublyaj studiyasında da yüzlərcə bədii, sənədli və tədris filmləri rus dilindən tərcümə olunmuşdur.

Bu filmlər içərisində vətən sevgisi, vətənpərvərlik ideyası təbliğ edən ekran əsərləri daha çoxdur. Onlardan 1947-ci ildə Bakı kinostudiyasında yazıçı Mehdi Hüseynin ssenarisi əsasında çəkilmiş "Fətəli xan" adlı tarixi-bioqrafik kinonu göstərmək olar. Rus və Azərbaycan dillərində çəkilmiş, rejissoru Zeynəb Kazımova olan filmdə baş rolu dövlət mükafatına layiq görülmüş görkəmli aktyor Ələsgər Ələkbərov oynamışdı. Filmdəki XVIII əsr Quba hakimi Fətəli xan obrazının Azərbaycanın vahid dövlət kimi birləşməsinə çalışaraq yadellilərə qarşı mübarizəyə qalxması tərənnüm olunur. Stalin tərəfindən qadağa qoyulmuş bu film 1959-cu ildə yenidən "qayçılanaraq" 97 dəqiqədən 67 dəqiqəyə endirilməklə yalnız rus variantında ekranlara icazə ala bilmişdir. Bundan on il sonra, 1958-ci ildə Bakı kinostudiyasında "Uzaq sahillərdə" adlı bədii film çəkilərək ekranlara buraxılmışdır. Rejissoru Tofiq Tağızadə olan film yazıçı İmran Qasımovla Həsən Seyidbəylinin eyniadlı povesti əsasında ekranlaşdırılmışdır. Filmdə vətəndən uzaqlarda vətənpərvərlik ideyalarını həyata keçirən xalqımızın qəhrəman oğlu Mehdi Manaf oğlu Hüseynzadənin II Dünya müharibəsi illərində İtaliya və Yuqoslaviyada partizanlarla birlikdə faşist işğalçılarına qarşı mübarizəsi göstərilmişdir. Baş rolu Dağıstanın əməkdar artisti Nodar Şaşıqoğlu uğurla canlandırmışdır.

1960-cı ildə isə "Azərbaycanfilm" kinostudiyası tərəfindən ilk tammetrajlı (2733 metr) genişekranlı rəngli "Koroğlu" filmi çəkilmişdir. Rejissoru Hüseyn Sadıqzadə olan filmdə xalq qəhrəmanı Koroğlunun mübarizəsi öz əksini tapmışdır. Bundan sonra 1967-ci ildə "Dağlarda döyüş" adlı hərbi-vətənpərvərlik ideyalı rəngli bədii film çəkilərək tamaşaçıların ixtiyarına verilmişdir. Rejissoru Famil Rüstəmbəyov olan film yazıçı Ə.Muğanlının "Tikanlı məftillər" povesti əsasında ekranlaşdırılmışdır. Filmdə vətəni hər şeydən uca tutmaq ideyası təbliğ olunur. Azərbaycan kino tarixində özünəməxsus yeri olan, 1973-cü ildə istehsal olunmuş "Nəsimi" adlı rəngli tarixi-bioqrafik bədii filmi isə Azərbaycan xalqının orta əsrlər dövründə yaşamış görkəmli şair-filosofu və hürufi təriqətinin aparıcısı İmadəddin Nəsimiyə həsr olunmuşdur. Rejissoru Həsən Seyidbəyli olan filmdə Azərbaycanda, xüsusilə Naxçıvanın Əlincə qalasında işğalçı teymurilərə qarşı xalqın apadığı ədalətli mübarizəsi göstərilir. Filmin naturadan çəkilişləri Culfa rayonundakı Əlincə çayının sahillərində aparılmış, kütləvi epizodik rollarda isə naxçıvanlı aktyorlar çəkilmişlər. Hələ sovetlər dönəmində bu film böyük uğur qazanaraq eksport ekran əsəri kimi şərq ölkələrindəki kinoteatrlarda nümayiş olunmuşdur. 1974-cü ildə Bakıda keçirilən VII ümumittifaq kino festivalında Nəsimi obrazını layiqincə yaratmış Rasim Balayevə fəxri mükafat verilmişdir.

Vətənpərvərlik ideyalarını özündə birləşdirən digər bir ekran əsəri də "Dədə Qorqud" bədii filmidir. 1975-ci ildə istehsal olunan həmin filmin rejissoru Tofiq Tağızadə, ssenari müəllifi Anardır. İlk 2 seriyalı rəngli film olan bu ekran əsəri Azərbaycan xalqının ilk yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarının motivləri əsasında çəkilmişdir. Filmdə dastanın cəmisi 2 boyundan istifadə olunsa da, film uğurlu alınmışdı. Vətənə, torpağa, qardaşlığa məhəbbət hisslərini özündə əks etdirən filmin naturadan çəkilişləri Qobustanda, Şamaxıda (Pirqulu) və başqa yerlərdə aparılmışdır. Tarixi vətənpərvərlik mövzulu ekran əsərləri içərisində 2 seriyalı rəngli "Babək" filminin də özünəməxsus yeri var. 1979-cu ildə "Azərbaycanfilm"in "Mosfilm" kinostudiyası ilə birlikdə çəkdikləri bu filmin rejissoru Eldar Quliyev, ssenari müəllifi Ənvər Məmmədxanlıdır. Filmdə sərkərdə və dövlət başçısı Babəkin (Rasim Balayev) ərəb işğalçılarına qarşı mübarizəsi, azadlıq uğrunda fədakarcasına qəhrəmanlığı göstərilmişdir. Hərbi-vətənpərvərlik ruhunda çəkilmiş ekran əsərləri içərisində II Dünya müharibəsi illərində birinci Pribaltika cəbhəsində döyüşən Azərbaycan xalqının igid sərkərdəsi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun böyük şücaətinə həsr olunmuş "Sizi dünyalar qədər sevirəm" adlı filmini də misal göstərmək olar.

Vətənpərvərlik ideyalarının tərənnüm olduğu filmlərin çəkilişi ölkəmiz müstəqillik qazandıqdan sonra da davam etmişdir. 90-cı illərin əvvəllərində Ermənistan silahlı dəstələrinin Azərbaycanın sərhəd bölgələrinə hücumu və baş verən qanlı faciələr 1993-cü ildə "Azərbaycanfilm"in "Aşkarfilm"lə birlikdə çəkdiyi "Fəryad" adlı hərbi-vətənpərvərlik filminde öz əksini tapmışdır. Rejissoru Ceyhun Mirzəyev, ssenari müəllifi Vaqif Mustafayev olan filmdəki hadisələr məlum "Ögey ana" bədii filminin davamı kimi verilir və balaca İsmayılın böyüyüb ailə qurması və Qarabağ uğrundakı döyüşlərdə batalyon komandiri kimi cəsurluğu və ermənilərə əsir düşməsi göstərilir. Filmin baş rol ifaçısı və rejissoru Ceyhun Mirzəyev ölümündən sonra, 1994-cü ildə bu filmə görə "Humay" mükafatına layiq görülmüşdür.

Məlum olduğu kimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həmişə milli kino incəsənətində vətənpərvərlik ideologiyasını tərənnüm edən ekran əsərlərinə böyük önəm vermişdir. Bu baxımdan istər muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərində, istərsə də rayon mərkəzlərindəki kinoteatrlarda hərbi-vətənpərvərlik filmlərinin nümayişinə xüsusi yer verilir. 20 faiz torpaqlarımızın erməni işğalı altında olduğunu unutmayan, yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsində kinofilmlərin təbliğini əsas vasitə kimi dəyərləndirən Şərur şəhərindəki "Bahar" kinoteatrı və Naxçıvan şəhərindəki Gənclik Mərkəzinin kollektivi də mütəmadi olaraq milli vətənpərvərlik ruhundakı ekran əsərlərini tamaşaçılara təqdim edir.

Feyruz BAĞIROV